**AZƏRBAYCAN RESPUBLİKASI**

**ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN KOLLEGİYASI**

**QƏRAR**

№ 5-1

**Bakı şəhəri** "06" mart 2017-ci il

**"Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları" və "Məcburi dövlət sosial sığortası üzrə sığorta iştirakçılarının uçotu Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun Kollegiyasının 2014-cü il 18 noyabr tarixli 04 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndinə əsasən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiəsi Fondunun Kollegiyasının 2014-cü il 18 noyabr tarixli 04 nömrəli qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları"nda və "Məcburi dövlət sosial sığortası üzrə sığorta iştirakçılarının uçotu Qaydaları"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Hüquq şöbəsinə (G.İsgəndərova) tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Ümumi şöbəsinə (L.Abdullayeva) tapşırılsın ki, bu Qərarın surətinin çoxaldılaraq Nazirliyin aidiyyəti struktur bölmələrinə çatdırılmasını təmin etsin.
4. Qərarın icrasına nəzarət nazir müavini İ.İsayevə həvalə edilsin.

---

**Kollegiyanın sədri** **Səlim Müslümov**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının "06" mart 2017-ci il tarixli 5-1 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun Kollegiyasının 2014-cü il 18 noyabr tarixli 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları"nda və "Məcburi dövlət sosial sığorta üzrə sığorta iştirakçılarının uçotu Qaydaları"nda edilmiş dəyişikliklər:**

**1.** "Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları" üzrə:

**1.1.** 8.23-cü və 9.22-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"8.23. Məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma və sığortaedənlər tərəfindən "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə və qaydada sığortaolunanlar haqqında məlumatların DSMF-yə təqdim edilməməsi Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrinə əsasən müvafiq məsuliyyətə səbəb olur.".

"9.22. Sosial sığorta haqqında qanunvericiliyi pozmuş şəxsin əməlində inzibati xəta əlamətləri aşkar edildikdə onun məsuliyyətə cəlb edilməsi üçün Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə müvafiq tədbirlər görülür.".

**1.2.** Qaydaların 18, 19 və 20 nömrəli Əlavələri ləğv edilsin.

**2.** "Məcburi dövlət sosial sığorta üzrə sığorta iştirakçılarının uçotu Qaydaları" üzrə:

**2.1.** 5.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.1. Sığortaolunanlar haqqında məlumatların təqdim edilməsi barədə DSMF orqanı tərəfindən sığortaedənlərə "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddət bitənədək yazılı xəbərdarlıq (Əlavə № 22) edilir.

Məcburi dövlət sosial sığortası üzrə sığorta iştirakçılarının uçotu qaydalarının pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq məsuliyyətə səbəb olur.".

**2.2.** 5.2-5.4-cü bəndlər ləğv edilsin.

**2.3.** Qaydaların 11 nömrəli Əlavəsi ləğv edilsin.

**2.4.** Qaydaların 22 nömrəli Əlavəsinin 2-ci abzasında "257-4" rəqəmləri "477" rəqəmləri ilə, "sığortaolunanların fərdi uçot sistemində uçota alınmasını təmin" sözləri "sığortaolunanlar haqqında məlumatları təqdim" sözləri ilə, "Sizə cərimə tətbiq olunacaqdır" sözləri "Siz inzibati məsuliyyət daşıyırsınız" sözləri ilə əvəz edilsin.